# TƏLİMDƏ ƏKS-ƏLAQƏNİN YARADILMASININ PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**RAMİZ ƏLİYEV**
Pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsil menecmenti kafedrasının dosenti.
E-mail: ramizeliyev905@gmail.com
https://orcid.org/0009-0000-2707-1018

**Məqaləyə istinad:**
Əliyev R. (2024). Təlimdə əks-əlaqənin yaradılmasının pedaqoji-psixoloji əsasları. *Azərbaycan məktəbi.* № 3 (708), səh. 84–90

DOI: 10.30546/32898065.2024.3.019

**Məqalə tarixçəsi**
Göndərilib: 04.06.2024
Qəbul edilib: 19.07.2024

## ANNOTASİYA

Yeni mərhələdə təhsil proqramına (kurikuluma) yönələn pedaqoji-psixoloji yanaşmalar fonunda emosional effektlərin təsiri altında yaradılan müəllim-şagird münasibətləri zamanı tələbyönlü əks-əlaqə mexanizmi meydana çıxır. Müasir məktəb sistemində uyğunluq bir prinsip olaraq populyar deyil. Münasibətlər tələblərə uyğun qurulduqda şagirdlərin özünə nəzarəti artır, motivasiya və cavabdehlik hissi yüksəlir, bu zaman onlarda özlərini və qarşı tərəfi qiymətləndirmək qabiliyyəti formalaşır. Həmçinin nəzərə alsaq ki, müasir dərsdə təlimin keyfiyyəti şagirdlərin təlim nəticələrindən, onların bilik, bacarıq və vərdişlərə hansı səviyyədə yiyələnmələrindən asılıdır, bu zaman şagird kollektivinə verilən qiymət müəllimin özünə verilən qiymət kimi dəyərləndirilir, bu da əqli inkişaf mərhələsində müəllimin əks-əlaqə yaratmaq qabiliyyətinin səviyyəsi ilə müəyyən olunur. Məqalədə bu məqamlar üzərində dayanılır, səmərəli əks-əlaqə üsul və formaları şərh olunur, təlim prosesində əks-əlaqənin yaradılmasının əsas cəhətlərindən problemin pedaqoji-psixoloji həll yollarından danışılır, həmçinin təhsilalanların müxtəlif fənlərə marağını artırmaq üçün konkret təkliflər verilir. Əlavə olaraq məqalədə müəllim-şagird əməkdaşlığının, onlar arasında qarşılıqlı təsir imkanlarının genişləndirilməsində əhəmiyyətli rol oynayan bu amillərdən istifadəyə dair nümunələr göstərilir.

**Açar sözlər:** Əks-əlaqə, emosional effektlər, müəllim-şagird əməkdaşlığı, motivasiyanın keyfiyyəti, rəqabət mühiti.

# PEDAGOGICAL AND PSYCHOLOGICAL BASES OF FEEDBACK IN EDUCATION

**RAMİZ ALİYEV**
Doctor of Philosophy in Pedagogy, Associate Professor of the Department of Education Management at Azerbaijan State Pedagogical University.
E-mail: ramizeliyev905@gmail.com
https://orcid.org/0009-0000-2707-1018

**To cite this article:**
Aliyev R. (2024). Pedagogical and psychological bases of feedback in education. *Azerbaijan Journal of Educational Studies.* Vol. 708, Issue III, pp. 84–90

DOI: 10.30546/32898065.2024.3.019

**ABSTRACT**

In the new phase, in the context of pedagogical-psychological approaches to the educational program (curriculum), a demand-oriented feedback mechanism is created in teacher-student relations, which are formed by emotional effects. Conformity as a principle is not very popular in the modern school system. When relationships are structured according to demands, students' self-control, motivation, and sense of responsibility increase, and their ability to evaluate themselves and others improves. Also, considering that in a modern lesson, the quality of teaching depends on the learning outcomes of the students, and the level at which they acquire knowledge, skills, and habits, at this time, the assessment given to the student collective is evaluated as an assessment of the teacher themselves, this is determined by the teacher's ability to create feedback at the stage of intellectual development. The article focuses on these points, explains effective feedback methods and forms, discusses the main aspects of creating feedback in the teaching process, and the pedagogical-psychological solutions to the problem. Additionally, specific suggestions are given to increase students' interest in various subjects. Additionally, the article provides examples of these factors, which play a significant role in expanding the opportunities for mutual interaction between teachers and students.

**Keywords:** Feedback, emotional effects, teacher-student collaboration, quality of motivation, competitive environment.

**Article history**
Received: 04.06.2024
Accepted: 19.07.2024

Qloballaşma və inteqrasiya proseslərinin getdikcə sürətləndiyi bir zamanda müstəqil Azərbaycan dövlətində təhsil siyasətinin həyata keçirilməsi bir sıra yeni məzmun və forma keyfiyyətləri ilə müşayiət olunmaqdadır. Bu bir həqiqətdir ki, keyfiyyətli təhsil, səriştəli mütəxəssis hazırlığı cəmiyyətin inkişafına təkan verən aparıcı qüvvədir. İnformasiya və təlim texnologiyasının sürətlə inkişaf etdiyi bir dövrdə şəxsiyyətlərarası qarşılıqlı münasibətləri yaratmadan, müəllim-şagird əməkdaşlığına nail olmadan dövlətin təhsil siyasətinin mahiyyətindən irəli gələn məqsədlərə çata bilməyəcəyik. Bu cəhətdən təlim prosesində təhsilalanlarla təhsilverənlər arasında qarşılıqlı təsir imkanlarını öyrənmək, uyğun əks-əlaqənin yaradılmasını şərtləndirən amilləri aşkar etmək, onların pedaqoji-psixoloji əsaslarını müəyyənləşdirmək mühüm problem olaraq diqqət çəkir.

Müasir dövrdə təlimdə əks-əlaqənin yaradılmasının pedaqoji-psixoloji mexanizmlərinin tədqiqata cəlb edilməsi ilə bərabər əks-əlaqə zamanı müxtəlif parametrlərin dəyişmə dinamikası nəzərə alınmalıdır. Araşdırmalar göstərir ki, neqativ təsirlər zamanı təhsilalanlarda motivasiya, özünüqiymətləndirmə, təlim nailiyyətlərinin dəyişməsi pozitiv təsirlərə nisbətən daha yüksəkdir. Bu amil onu təsdiq edir ki, müsbət və mənfi emosional əlaqələr zamanı əks-əlaqə müxtəlif məzmunlu olmaqla ciddi dəyişikliyə uğrayır, bu əlaqələr nə qədər sistemli və ardıcıl xarakter alırsa, şəxsiyyətin inkişafı üçün ciddi stimullaşdırıcı sfera bərqərar ola bilər. Nəzərə alaq ki, emosional effektlərin təsiri altında şəxsiyyət və vətəndaş hazırlığı həyata keçirilir. Sadə dillə desək, pozitiv əlaqələr təlimdə öyrənənlərdə qavrama, anlama, möhkəmlətmə, tətbiqetmə imkanlarını artırır, motivasiyanı və qrupdaxili qiymətləndirmənin, o cümlədən özünüqiymətləndirmənin adekvatlığını bir qədər intensivləşdirir, şəxsiyyətin maraq, tələbat, istək və qabiliyyətlərinə uyğun öyrədici mühitin yaradılmasına psixoloji zəmin yaradır. Əksinə, neqativ əlaqələr təlimdə mənimsəməni, motivasiyanı aşağı salır və şəxsiyyətin hərtərəfli inkişafı üçün ciddi maneələr yaradır (Bayramov, Əlizadə, 2003; Əliyev, 1997).

Alimlər şəxsiyyət hazırlığında əks-əlaqənin rolundan bəhs edərək onu başqaları tərəfindən dəqiq qavranılmasını yüksəldən, obrazın düzəlişlər etməsinə kömək edən və kommunikasiya üzrə partnyorun davranışının dəqiq proqnozlaşdırılmasına (ehtimallar üzrə) imkan verən əsas ideya kimi irəli sürürlər. Nəzərə alaq ki, əks-əlaqə fəaliyyətin keyfiyyəti və kommunikasiyanın effektivliyi ilə bağlıdır. Şəxsiyyətin fərdi və yaş xüsusiyyətləri baxımından informasiya mübadiləsinə uyğun əks-əlaqəsi o zaman mümkündür ki, onda respientin davranışının gözlənilən istiqamətdə dəyişməsinə gətirib çıxarsın.

Şəxsiyyətin formalaşması, təhsili, inkişafı və sosiallaşması effektiv əks-əlaqə zamanı mümkündür. Belə ki, həm dərk olunmayan, şüuraltı instinktlərə, hisslərə əsaslanan şəxsiyyətin, sosial mənə malik şəxsiyyətin, həm də mükəmməl şəxsiyyətin inkişafında effektiv əks-əlaqənin rolu inkar edilməzdir, çünki şəxsiyyət qarşılıqlı münasibətlər fonunda, qarşılıqlı təsir imkanlarına malik tərəflər arasında formalaşır. Tədqiqatçılar genetik başlanğıc kimi əks-əlaqə formasını insan üçün təsəvvür etdikdə belə qərara gəlirlər ki, başlanğıcda uşağın şüuru anadangəlmə əks-əlaqə kimi formalaşır. Mövcud əks-əlaqə sosial möhkəmləndirmə üçün nümunə rolunda çıxış edir və növbəti möhkəmləndirmənin əsasını təşkil edir. Əks-əlaqənin xüsusi strategiyası və başqa adamlarla əks-əlaqənin yaradılması mükəmməl şəxsiyyət hazırlığı istiqamətində belə formalaşır (Çələbiyev, 2009; Cabbarov, 2020).

Əks-əlaqənin əsas məqsədlərindən biri də şagirdlərin həyati bilik, bacarıq və vərdişlərə vaxtında sahib olmasından, sosiallaşmasından (məktəb həyatından) və cəmiyyət həyatına hazırlanmasından ibarətdir. Psixoloqlar effektiv əks-əlaqə fonunda yaradılan təlim-tərbiyənin fərdlərin (bioloji varlıq olaraq) şəxsiyyətə çevrilməsində, bu sahədə stimullaşdırmanın, motivasiyanın və özünüqiymətləndirmənin əhəmiyyətli təsirini qeyd edirlər.

Müasir şəraitdə təhsil proqramına yönələn pedaqoji-psixoloji yanaşmalar ondan xəbər verir ki, emosional effektlərin təsiri altında

yaradılan müəllim-şagird münasibətləri zamanı tələbyönlü əks-əlaqə mexanizmi yaranır. Bu zaman müəllimlər və şagirdlər arasındakı münasibət vahid pedaqoji tələblərə uyğun bütöv sistem yaradır. Axı müasir şəraitdə hörmətə söykənən tələbkarlıq fonunda şəxsiyyətlərarası qarşılıqlı münasibətlər yaranır ki, bu amil psixoloji nöqteyi-nəzərdən normal pedaqoji-psixoloji əməkdaşlıq mühitinin yaranmasına əlverişli şərait yarada bilər. Müasir məktəb sistemində pozitiv əks-əlaqə şəraitində yaradılan uyğunluq bir prinsip olaraq populyar deyil. Çünki münasibətlər tələblərə uyğun qurulduqda şagirdlərin özünə nəzarəti artır, motivasiya və cavabdehlik hissi yüksəlir, bu zaman özlərini və qarşı tərəfi qiymətləndirmək qabiliyyəti formalaşır (Əliyev, 1997; Hüseynova, Vəliyeva, 2004).

Mütəxəssislər əks-əlaqə mexanizminin təsiri ilə yaranan təlimdə inkişafyönlülük faktoru haqqında əsaslı fikirlər irəli sürürlər. Onlar haqlı olaraq emosional effektlərin təsiri ilə yaranan psixoloji funksiyaların inkişafından bəhs edir, bu sırada təfəkkürün, hafizənin, diqqətin, nitqin yaranmasında əhəmiyyətli rol oynayan əks-əlaqənin güclü müsbət və mənfi təsirləri haqqında əsaslandırılmış fikirlər söyləyirlər. Əgər baş verən hadisə və proseslər vahid pedaqoji və psixoloji tələblərə cavab verirsə, bu amil informasiya bolluğu şəraitində inkişafa uyğun mühitin mövcudluğundan xəbər verir. Nəzərə alsaq ki, müasir dərsdə təlimin keyfiyyəti şagirdlər tərəfindən qiymətləndirilir, onların fikirləri əsas götürülür, bu da əqli inkişaf məsələlərində müəllimin əks-əlaqə yaratmaq qabiliyyətinin səviyyəsi ilə müəyyən olunur.

Tədqiqatçılar effektiv əks-əlaqə şəraitində yaranan inkişafyönlü mühitdə əks-əlaqənin 2 funksiyasını qeyd edirlər: nəzarətedici və korreksiyaedici funksiyalar. Eyni zamanda inkişafyönlü mühitdə əsas məzmun öyrədici funksiyanın qabardılmasına, standartlaşdırılmamış nəzarət formasına diqqətin yönəldilməsinə, müsbət və mənfi qiymətləndirmə effektinin xarici prosedurlarının öyrənilməsinə və bu prosesə valideynlərin cəlb edilməsinə istiqamətlənir[1] (Çələbiyev, 2009).

Effektli əks-əlaqə şəraitində yaranan inkişafyönlü mühitdə, əvvəlcə, şagirdlərin fəaliyyətində idrak fəallığı müşahidə edilir, bu fəallıq sonrakı mərhələdə əməli fəallığın yaranmasına real zəmin yaradır. Hazırda dünyada hər şeydən əvvəl, informasiyanı qavramağın və növbəti mərhələdə onları bilik, bacarıq və vərdişlərə çevirməyin psixoloji məsələləri öyrənilir. Müəllim-şagird münasibətlərində yaranan əks-əlaqə şəraitində inkişafa aparan amilləri öyrənmək üçün bu fikirlər nəzərə alına bilər: məlumatı qavramaq, anlamaq, möhkəmlətmək və tətbiq etmək üçün psixoloji cəhətdən səfərbər olunmaq; məlumatların sistemləşdirilməsi, ümumiləşdirilməsi və biliklərə çevrilməsi; biliklərin möhkəmləndirilməsi və bacarıq şəklində tətbiq edilməsi və s.

Araşdırmalar göstərir ki, qarşılıqlı əks-əlaqə nəticəsində bərqərar olan inkişafa istiqamətlənmiş təlimdə dialoji xarakterli tədbirlərin önə çəkilməsi əks-əlaqənin dinamik xarakterini səciyyələndirir. Bu zaman tərəflərin bir-birini dinləməsi və inandırması təlim prosesində səmərəli nəticələrin əldə edilməsinə, keyfiyyətin yüksəldilməsinə psixoloji təsir göstərə bilər.

Tədqiqatçılar emosional effektlərin təsiri altında yaranan əks-əlaqə zəminində inkişafyönlü təlimdən bəhs edir və motivləri idrakın hərəkətverici qüvvəsi kimi təqdim edirlər. Zənnimizcə, bu doğru yanaşmadır (Cabbarov, 2020; Əliyev, 1997).

Təlim sistemində mövcud olan istər idraki motivlər, kommunikativ motivlər, peşə motivləri və s. şəxsiyyətin və onun münasibətlərinin mövcud şəraitə uyğun dəyişməsi və inkişaf etdirilməsi prosesidir. Psixoloqlar inkişafyönlü təlim prosesində aparıcı rol oynayan motivləri iki hissəyə bölürlər. Xarici motivlər cəmiyyətdən, o cümlədən fənn müəllimindən, sinif rəhbərindən, valideynlərdən gəlir. Daxili motivlər isə uşağın özündən, onun psixoloji funksiyalarından asılı olan motivlərdir. Təlim fəaliyyətində şagirdin özünün təşəbbüskar, həvəsli olması vacib

[1] "Okulda çolu zeka kuramı", Pegem yayınçılık, Ankara, 2005, 195 s.

amillərdəndir. Effektiv əks-əlaqə şəraitində şagirdin maraq, istək, arzu və qabiliyyəti ilə bağlı faktlar aşkar edilir, sonrakı mərhələdə həm şagirdin, həm də pedaqoji prosesin inkişafı üçün əlverişli psixoloji vəziyyət yaranır.

Zənnimizcə, təlim prosesində pozitiv əks-əlaqə şəraitində yaradılan inkişafyönlülüyü təmin etmək üçün motivlərin öyrənilməsi və formalaşdırılması vacibdir. Belə ki, inkişafyönlü təlim prosesini idarə etmək üçün effektiv əks-əlaqənin imkanlarından istifadə edərək təlim məqsədlərini psixoloji baxımdan dəqiqləşdirmək, yaş imkanlarını üzə çıxarmaq, motivasiyanın başlanğıc səviyyəsini öyrənmək, zəruri motivlərin formalaşdırılması kimi psixoloji yanaşmaları həyata keçirmək, fikrimizcə, doğru olar[2] (Çələbiyev, 2009).

Araşdırmalar göstərir ki, effektiv əks-əlaqə fonunda yaradılan motivlərin ən təsirli və nəticəyönlüsü daxili motivlərdir. Əgər şagird mövcud əks-əlaqədən yaranan davranış və fəaliyyətindən məmnunluq duyursa, həmin motivi daxili motiv hesab etmək olar.

Psixoloqlar hesab edir ki, inkişafyönlü təlim prosesində səriştəli müəllimlər motivasiyanın aşağıdakı yanaşmalarını (priyomlar) şagirdlərə təklif edə bilərlər:

- pozitiv əlaqələr təlim nailiyyətlərini, motivasiyanı və özünüqiymətləndirmənin adekvatlığını müəyyən səviyyəyə qədər artırdığına görə işinizi uzunmüddətli perspektivə planlaşdırın;
- qrupdaxili təlimdə neqativ əlaqələr müəyyən həddə qədər mənimsəmənin təmin edilməsinə, səmərəliliyin artmasına və qrupdaxili qiymətləndirmənin reallaşmasına maneə yaradırsa, özünüzə elə yoldaş seçin ki, onunla ünsiyyətdən bir şey öyrənə biləsiniz, həm də ona bir şey öyrədə biləsiniz;
- pozitiv və neqativ emosional əlaqələr zamanı əks-əlaqə ciddi dəyişikliyə məruz qaldığına, bu əlaqələr bir qədər ciddi davamlı səciyyə daşıdığına görə təlim məşğələləri üçün daimi vaxt müəyyən edin;
- təlimdə pozitiv fonda əks-əlaqənin yaradılması idrak fəallığını artırıb, təlimə münasibəti yaxşılaşdırdığına görə ümumi şəkildə öz təliminizin məqsəd və vəzifələrini müəyyən edin;
- təlimin nəzarət və tənzim etmə funksiyalarında, əsasən, motivasiyaedici və nəzarətedici komponentlər daha çox araşdırıldığına görə dərsin məzmununu asan mənimsənilə bilən hissələrə ayırın və əvvəlcə asan, sonra, orta və nəhayət çətin səviyyədə olan hissəni öyrənin;
- pozitiv əlaqələr təlimin adekvatlığını müəyyən səviyyəyə qədər artırdığına görə tapşırığı yerinə yetirib qurtarandan sonra özünüzə xoş sözlər deyin və s.

Təcrübə göstərir ki, emosional effektlərin təsiri altında yaradılan əks-əlaqə şəraitində motivasiyanın təlim müvəffəqiyyətinə təsiri intensivləşir. Belə ki, şagird şəxsiyyətinin davranış, hərəkət və nitqinin idarə edilməsində psixoloq, pedaqoq və valideynlərin maraq və istəyini ifadə edən aparıcı faktor motivasiyadır. Zənnimizcə, motivasiya nəzərə alınmadan şagirdlərlə hər hansı effektiv əks-əlaqə mümkün olmaz. Psixoloqlar, forma dəyişsə də, məzmunca motivasiya anlayışını oxuculara belə təqdim edirlər, o müəyyən tələbatın reallaşması ilə bağlı şagirdlərin aktivliyə meyilli olmasıdır. İnkişafyönlü təlim sistemində motivasiya məhz bu funksiyanı yerinə yetirir. Motiv deyəndə tələbatlar, maraqlar, inam, sosial təsisetmə və dəyərlər başa düşülür. Bu amillər analoji effektiv əks-əlaqə şəraitində yaranır və ya aşkar edilir[3] (Əliyev, Əliyeva, Cabbarov, 2011).

Bəs effektiv əks-əlaqə fonunda bərqərar olunan motivasiya təlim fəaliyyətinin gedişinə necə təsir göstərir? Psixoloqlar sübut edir ki, motivasiyanın gücü və quruluşu yalnız keyfiyyətinə görə (məsələn: güclü-zəif) deyil, həm də kəmiyyətinə görə xarakterizə olunur. Nəzərə alsaq ki, motiv dərketmənin hərəkətvericisidir, bu, inkişafyönlü təlim prosesində daxili motivasiyadan xəbər verir. Yox əgər sosial, nüfuz,

2 "Okulda çolu zeka kuramı", Pegem yayınçılık, Ankara, 2005, 195 s.

3 "Okulda çolu zeka kuramı", Pegem yayınçılık, Ankara, 2005, 195 s.

əmək haqqı və s. tələbatlardan danışılırsa, bu, xarici motivlərdir. Pozitiv əks-əlaqəyə uyğun yaradılan motivlər (xarici motivlər) çox vaxt şəxsiyyətin daxili istək və meyilləri ilə vəhdət təşkil edir. Motivasiyanın əsl özəyi insanın özündədir. Əgər emosional effektlərin təsiri altında yaranan əks-əlaqə pozitiv deyil, neqativ xarakterlidirsə motiv xarici təsirlərin hesabına deyil, təhrikedici qüvvə hesabına reallaşsada, nəticələr ürəkaçan olmayacaq. Deməli, motivlər özü də pozitiv və neqativ xassəli olurlar. Göründüyü kimi xarici pozitiv motivlər, hətta öz təsir imkanlarına görə bərabər olsa da xarici neqativ motivlərdən daha məqsədəuyğun və səmərəli olur. Təlim prosesində müəllim-şagird əks əlaqəsində müvəffəqiyyətə təsir göstərən amillər kimi həm xarici (sosial) faktorlar, həm də daxili (psixoloji) faktorlar qarşılıqlı münasibətlərin formalaşmasında təsirli rola malikdir. Hazırda tədrisdə motivasiya problemi ilə məşğul olan psixoloqlar və pedaqoqlar motivasiyanın şagirdlərin formalaşmasında və inkişafında böyük əhəmiyyətli olduğunu qeyd edirlər və isbat edirlər ki, motivasiya dərketmənin reallaşması üçün zəmanətdir. Çünki bunsuz nə təfəkkür inkişaf edir, nə də yeni biliklər və bacarıqlar yaranır.

Effektiv əks-əlaqədə məlum olur ki, tədris sistemində motivasiyanın formalaşması və inkişafı şagirdlərin dərketmə fəallığı, fərdiliyi və yaş xüsusiyyətləri nəzərə alınmaqla reallaşır. Motivasiyanın təlim uğurlarına təsirini öyrənən əks-əlaqənin məğzinə aid olan tədqiqatları iki cəhətdən qruplaşdırmaq olar: birinci təhsildə əks-əlaqənin öyrənilməsində şagirdlərin öyrənməsi tədqiq edilir, öyrənmənin, həm də öyrənməyi öyrətmənin daha optimal yolları təhlilə cəlb edilir. Fərqli variantda isə şagirdlərin müəllimə verdikləri cavablar diqqəti cəlb edir. Təbii ki, birinci istiqamətdə təlimdə mənimsəmə prosesi nəzərdə tutulur. Lakin mənimsəmə özünün struktur komponentinə görə əks-əlaqədən fərqlənir. Məhz bu amil, fikrimizcə, effektiv əks-əlaqə prosesində nəzərə alınmalıdır (Əliyev, Cabbarov, 2008; Həmzəyev, 1997).

Tədqiqatçı alimlər motivləri real və qeyri-real olmaqla iki yerə ayırır və isbat edirlər ki, təlim prosesi real motivlərə əsaslanır, eyni zamanda daha yüksək təsir imkanlarına malik olur.

İrəlidə qeyd edilən fikirlər effektiv əks-əlaqə şəraitində inkişafyönlü təlimin reallaşdırılmasının ən optimal cəhətlərini müəyyən etməyə imkan verə bilər.

Hazırda danışan, dinləyən və işləyən şagirdlərin psixoloji imkanlarını və tərəflərin pozitiv əks-əlaqələrinin təsiri altında sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdıran psixoloji şəraiti yaratmaq mümkündür. Bildiyimiz kimi, əks əlaqə zəmnində yaranan rəqabət təlim prosesində yarışın, bəhsin, sivil qaydada təşkil olunan mübarizənin bir yoludur. Psixoloqlar sübut edir ki, müəllim-şagird arasında yaradılan əks-əlaqə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırır, bir şərtlə ki, bu əks-əlaqə pozitiv faktorları özündə cəm edə bilsin. Hazırda təhsil sistemində təşkil olunan fərqli layihələr sağlam psixoloji ruhun, yenilik xarakterli şagirdlər ordusunun inkişafına və formalaşmasına real zəmin yaradır. Mürəkkəb dinamikaya malik təlim prosesi daha çox sağlam rəqabətə əsaslanan prinsiplər üzərində qurulmalıdır. Əlverişli təhsil mühiti müxtəlif mənalarda başa düşülə bilər. Hesab edirik ki, əlverişli təhsil mühitinin baza komponentlərindən biri də sağlam rəqabət üçün yaradılmış şəraitdir. Sağlam rəqabətin və innovativ fəaliyyətin stimullaşdırılması, bu proseslərin idarə edilməsi emosional effektlərin təsiri altında yaradılan əks-əlaqənin hansı istiqamətli olmasından çox şey asılıdır[4] (Cabbarov, 2020)

Bəs təlimdə sağlam rəqabət prinsipinin mahiyyətinə uyğun proses necə tənzimlənir? Zənnimizcə, müasir dövrdə bu, təlim prosesində diferensial yanaşma, humanitarlaşdırma, şagirdlərin fərdi xüsusiyyətlərə uyğun təlim prosesinə cəlb edilməsini nəzərdə tutur. Eyni zamanda tədqiqatçı-alimlər təlim prosesində şagirdlərin yaş xüsusiyyətlərini, o cümlədən akselarasiya (sürətləndirmə) amilini, senzitiv

[4] "Örgütsel davranış", Ankara universitesi, Eğitim fakültəsi, Ankara, 2008, 117 s.

yaş dövrünün əsas götürülməsini nəzərə almağı vacib hesab edirlər. Çünki effektiv əks-əlaqə şəraitində uyğun parametrlərə rəğmən şagirdləri rəqabətə qoşmaq və nəticəyönlülüyü təmin etmək mümkündür. Mütləq maraqlar, tələbatlar, istəklər, imkanlar, qabiliyyətlər, temperamentlər nəzərə alınmadan sağlam rəqabət mühiti yaratmaq mümkün deyil (Stremousova, 2008; Əliyev, Əliyeva, Cabbarov, 2011).

Tədqiqatçı-alimlər qeyd edirlər ki, emosional effektlərin təsiri altında təlim prosesində innovativ fəaliyyəti stimullaşdırmaq olar. Bildiyimiz kimi təlim prosesində yeniliklər tətbiq olunanda, isbatı veriləndə, nəticələr məlum olanda innovasiyaya çevrilə bilər. Təlim prosesində yeniliklər 2 yolla həyata keçirilir; a) daxili qüvvələr hesabına, yəni şagirdin təfəkkürünün, təxəyyülünün, iradəsinin və nitqinin hesabına; xarici qüvvələr, yəni şəxslərin, təhsil vəsaitlərinin və texnologiyaların hesabına. Təlim prosesində yaradılan əks-əlaqə şəraitində şagirdlər az vaxt, az qüvvə və vəsait sərf etməklə daha böyük nəticələr əldə edə bilirlər.

Tədqiqi araşdırmalar göstərir ki, müasir dövrdə təlimdə əks-əlaqənin yaradılmasının irəlidə qeyd olunan cəhətlərindən başqa digər cəhətləri də qeyd edilə bilər: əks-əlaqəyə interaksiya kontekstində baxılır; əks-əlaqə subyektin nitq fəaliyyətinin refleksiyası ilə bağlıdır; əks-əlaqə kommunikasiyası subyektinin verbal davranışının sonrakı inkişafına təsir edir və s.

Qeyd etdiyimiz kimi, təlim prosesində əks-əlaqənin yaradılması, ilk növbədə müəllim və şagird arasında məlumatın məqsədyönlü əldə edilməsi və mübadiləsi prosesidir. Bu zaman yeni məqsədlər, metodlar və vasitələr meydana çıxır. Təlimdə effektiv əks-əlaqə şagirdlərdə müstəqil və yaradıcı düşüncə tərzinin inkişafına əlverişli şərait yaradır. Prosesdə hər iki tərəfin təşəbbüskar və səmimi olması, hörmət və tələbkarlığa söykənən münasibət ortaya qoyması şagirdlərdə idrak fəallığını artırır, müəllim-şagird münasibətlərini normallaşdırır. Bu xüsusiyyətlər təlimdə keyfiyyətli əks-əlaqənin yaradılmasının pedaqoji və psixoloji fəaliyyətdə yeni perspektivlər və imkanlar açması qənaətinə gəlməyə əsas verir.

**İstifadə edilmiş ədəbiyyat**


1. “Okulda çolu zeka kuramı”, Pegem yayınçılık, Ankara, 2005, 195 s.
2. “Örgütsel davranış”, Ankara universitesi, Eğitim fakültəsi, Ankara, 2008, 117s.
3. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2003). Psixologiya, Bakı, 625 s.
4. Cabbarov, R.V. (2020). Təlimdə əks əlaqənin təmin edilməsində emosional effektlərin rolu, Bakı, 248 s.
5. Çələbiyev, N.Z. (2009). Təhsil sistemində psixoloji xidmətin elmi nəzəri əsasları, Bakı, 312 s.
6. Əliyev, B.H. (1997). Şəxsiyyətə yeni baxış nəzəriyyəsi, Bakı, 274 s.
7. Əliyev, B.H., Cabbarov, R.V. (2008). Təhsildə şəxsiyyət problemi, Bakı, 132 s.
8. Əliyev, B.H., Əliyeva, K.R., Cabbarov, R.V. (2011). Pedaqoji psixologiya, Bakı, 262 s.
9. Həmzəyev, M. (1991). Pedaqoji psixologiya, Bakı, 479 s.
10. Hüseynova, G.Q., Vəliyeva, Y.Ə. (2004). Emosiya və motivasiya psixologiyası, Bakı, 358 s.
11. Luk’yanenko, O.D. (2007). “Obespecheniye effektivnoy obratnoy svyazi v didakticheskom informayionnom vzaimodeystvii pedagoga i rebenka 6-7 let”/ Luk’yanenko O.D. // Vestnik Adygeyskogo gosudarstvennogo universiteta. Seriya 3. Pedagogika i psikhologiya. № 3, 75str.
12. Stremousova, Y.N. (2008). “Effektivnost’ obratnoy svyazi i yeye spetsifika v organizatsii”/Y.N.Stremousova //Prikladnaya yuridicheskaya psikhologiya. № 2, 86 str.